**Sadıqova A.N.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.70.115-128**
**UOT: 314.727.2**

# Azərbaycan Respublikasında miqrasiya proseslərində iştirak edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri

**Xülasə:** Məqalədə, Azərbaycan Respublikasında miqrasiya proseslərində iştirak edən, Azərbaycan Respublikasına viza əsasında və ya viza tələb olunmayan qaydada gələn, burada müvəqqəti olan, müvəqqəti olma müddəti uzadılan, müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilən, Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri araşdırılaraq təhlil edilir və bir sıra elmi təkliflər verilir.

**Açar sözlər:** miqrasiya proseslərinin iştirakçıları; ölkəyə gəlmək və ölkədən getmək; müvəqqəti olan; müvəqqəti yaşayan; daimi yaşayan; müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilən; iş icazəsi.

Azərbaycan Respublikasının Konstitusiyasının "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları" adlı 69-cu maddəsinin I hissəsində göstərilir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər [1, s. 16].

Konstitusiyanın bu müddəasından məlum olur ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunda nəzərdə tutulmuş bəzi istisnalarla ölkəmizin vətəndaşları ilə bərabər bütün hüquqlardan (bərabərlik, yaşamaq, azadlıq, mülkiyyət, nikah, əmək, istirahət, sosial təminat, təhsil, mənzil və s.) istifadə edir və bütün vəzifələri (vergilər və başqa dövlət ödənişləri, dövlət rəmzlərinə hörmət, tarix və mədəniyyət abidələrinin qorunması, ətraf mühitin qorunması və s.) yerinə yetirməlidirlər.

Azərbaycan Respublikasının Konstitusiyasının 69-cu maddəsinin II hissəsində göstərilir ki, Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər [1, s. 16].

Qeyd edilməlidir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların sosial və əmlak vəziyyəti, irqi və milli mənsubiyyəti, cinsi, dili, dinə münasibəti, fəaliyyətinin növündən və xarakterindən və digər hallardan asılı olmayaraq, Azərbaycan Respublikasında qanun və məhkəmə qarşısında bərabərdirlər.Ölkəmizdə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə tətbiq edilən Milli rejim prinsipinə əsasən xarici hüquqi şəxslər, əcnəbilər vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə bərabər müvafiq olaraq mülki hüquq və fəaliyyət qabiliyyətinə malikdir. Qarşılıqlı olaraq cavab tədbiri kimi bu qaydadan

♦ **Sadıqova Afaq Nadir qızı -** Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi publik hüquqi şəxsin tabeliyində olan Hüquq və İnsan Haqları İnstitutu publik hüquqi şəxsin əməkdaşı (Azərbaycan). E-mail: afaqsadiqova6@gmail.com

istisnalar müəyyən edilə bilər. “Beynəlxalq xüsusi hüquq haqqında” Azərbaycan Respublikasının 6 iyun 2000-ci il tarixli889-IQ nömrəli Qanunun 7-ci maddəsinə əsasən xarici dövlət onun ərazisində Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsinə məhdudiyyət qoyduqda, Azərbaycan Respublikasının qanunu ilə həmin dövlətin vətəndaşları üçün Azərbaycan Respublikasının ərazisində eyni məhdudiyyətlər müəyyən edilə bilər [4].

Beynəlxalq hüquq normalarının tələblərinə uyğun olaraq qanunu əsaslarla ölkəmizdə olan, müvəqqəti və ya daimi yaşayan, miqrasiya proseslərinin aktiv iştirakçıları hesab edilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının qorunması dövlətimiz tərəfindən lazımı səviyyədə təmin edilir. Belə ki, ölkəmizin qanunları ilə müəyyən olunmuş qaydada tutulmuş, yaxud həbs edilmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bu hərəkətlərə səbəb olan hallar və onların hüquqları haqqında Xarici İşlər Nazirliyinin vasitəsilə mənsub olduqları dövlətin diplomatik nümayəndəliyi və ya konsulluğuna dərhal məlumat verilməlidir. Habelə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş imtiyaz və immunitetə malik olan əcnəbini və vətəndaşlığı olmayan şəxsi tutmuş, yaxud həbs etmiş orqan bu barədə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada dərhal Xarici İşlər Nazirliyinə məlumat verməlidir.

Azərbaycan Respublikasının Konstitusiyanda təsbit edilmiş müddəalardan biri də Azərbaycan Respublikasında müvəqqəti olan, müvəqqəti və ya daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün vəzifələri yerinə yetirmələri ilə bağlıdır. Belə ki, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının milli mənafeyinə zidd olmamalıdır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikası qanunlarının və digər qanunvericilik aktlarının tələblərini pozmamalı, Azərbaycan xalqının adət və ənənələrinə hörmət etməlidirlər. Həmçinin,Miqrasiya qanunvericiliyinə əsasən ölkəmizin ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərinə riayət etməli və müəyyən olunmuş müddət bitdikdən sonra ölkə ərazisini tərk etməlidirlər. Bundan başqa, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidmətnin əməkdaşlarının qanuni tələblərinə əsasən, şəxsiyyətlərini təsdiq edən, habelə Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla olmalarını və ya yaşamalarını təsdiq edən sənədləri təqdim etməlidirlər. Əks təqdirdə təqsirkar şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyırlar.

Qeyd etmək lazımdır ki, Konstitusiyanın və milli qanunvericiliyimizin tələblərinə görə müəyyən vəzifələr tutmaq, yaxud müəyyən fəaliyyət növləri ilə məşğul olmaq Azərbaycan Respublikasının vətəndaşlığı ilə şərtləndirildiyi hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər belə vəzifələr tuta və belə fəaliyyətlə məşğul ola bilməzlər. Habelə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizin ərazisində dini təbliğat aparması da qadağan edilir.

Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyi ilə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən hüquqlardan biri də onların Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsidir. Bu hüquqlar əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri miqrasiya proseslərinin aktiv iştirakçısı kimi tanıyır. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 15.1-ci maddəsində göstərilir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət sərhədinin buraxılış məntəqələrindən keçmək şərti ilə, pasportları və ya digər sərhədkeçmə sənədləri əsasında Azərbaycan Respublikasına gələ və Azərbaycan Respublikasından gedə bilərlər [2, s. 11].

Ölkəmizin ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər pasportları və ya digər sərhədkeçmə sənədləri və Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələri əsasında Azərbaycan Respublikasından gedə və viza almadan Azərbaycan Respublikasına qayıda bilərlər. Bundan başqa, ölkəmizdə qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onlara Azərbaycan Respublikasının hüdudlarından kənara getmək üçün verilən "Yol sənədi" əsasında ölkəmizdən gedə və viza almadan ölkəmizə gələ bilərlər.

Azərbaycan Respublikasının ərazisinə gəlmək üçün viza tələb olunduğu hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Miqrasiya Məcəlləsinin 24-cü maddəsi ilə müəyyən olunmuş qaydada viza almalıdırlar. Ölkəmiz xarici dövlətlərlə müvafiq beynəlxalq müqavilələr bağlanmış olduğu hallarda, habelə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasına vizasız qaydada gələ bilərlər.

Miqrasiya qanunvericiliyin tələblərində göründüyü kimi hər hansı xarici dövlətdən viza əsasında və ya vizasız ölkəmizə gələn, ölkəmizin ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər pasportları və ya digər sərhədkeçmə sənədləri və Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələri əsasında ölkəmizin ərazisindən gedə və viza almadan ölkəmizə qayıda bilərlər. Ölkəmizdə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən çoxsaylı hüquqlar onları miqrasiya proseslərinin aktiv iştirakçısına çevirir. Miqrasiya proseslərində təkcə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər deyil, həm də Dövlət Miqrasiya Xidməti də miqrasiya proseslərinin iştirakçısı qismində çıxış edir. Miqrasiya proseslərində iştirak edən tərəflərin hüquq və vəzifələri dövlətimiz tərəfindən qorunur və müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Aparılmış araşdırmalarla müəyyən edilmişdir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəmizin ərasisində müvəqqəti olma müddəti uzadılan, müvəqqəti və ya daimi yaşamaq üçün icazəni və iş icazəsini alan zamanı onlar miqrasiya proseslərinin iştirakçıları funksiyalarını yerinə yetirirlər. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 5.0.4-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasına viza əsasında və ya viza tələb olunmayan qaydada gələn, burada müvəqqəti olan, müvəqqəti olma müddəti uzadılan, müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilən, Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya proseslərinin iştirakçıları hesab edilirlər [2, s. 3].

Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyinə görə viza əsasında ölkəmizə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən artıq ola bilməz. Viza tələb olunmayan qaydada ölkəmizə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin isə ölkədə müvəqqəti olma müddəti3 aydan artıq ola bilməz. Bu müddət bitənədək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəmizin ərazisini tərk etməlidirlər.

Ölkəmizdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olma müddətinin uzadılması halları, müvəqqəti olma müddətinin uzadılması qaydası, müvəqqəti olma müddətinin uzadılması haqqında qərarın qəbul edilməsi ilə bağlı olan bir sıra hüquq normaları da öz əksini tapmışdır. Bu proseslərdə həm əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, həm də bir sıra müvafiq dövlət orqanları (Dövlət Miqrasiya Xidməti, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və s.) miqrasiya proseslərinin iştirakçıları kimi çıxış edirlər. Miqrasiya proseslərində iştirak edən tərəflərin hüquqları, vəzifələri və öhdəlikləri yaranır.

Miqrasiya qanunvericiliyində hansı hallarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə müvəqqəti olma müddətinin uzadılması ilə bağlı olan müddəalar da öz əksini tapmışdır. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 40-cı maddəsində göstərilir ki,əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində təcili müalicə olunmasına zərurət yarandıqda; əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında yaşayan yaxın qohumları ağır xəstələndikdə və ya vəfat etdikdə; xidməti zərurətlə əlaqədar Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən nəzərdə tutulmuş işlərin başa çatdırılmadığına dair həmin şəxsləri ölkəyə dəvət etmiş təşkilat tərəfindən əsaslandırılmış vəsatət verildikdə; nəqliyyatın hərəkətinə maneə olan təbii fəlakət baş verdikdə; avtonəqliyyat vasitəsinin (onun hissələrinin) sıradan çıxması, yaxud yol-nəqliyyat hadisəsi nəticəsində təmirə ehtiyac yarandıqda (müvafiq sənəd təqdim edildikdə); Azərbaycan Respublikasının ərazisindən keçən şəxslər xəstələndikdə (bu halda keçidin davam etdirilməsinin xəstənin səhhəti üçün təhlükə törətdiyinə dair həkimin rəyi olmalıdır); əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin atasının, anasının, ərinin (arvadının), övladının, qardaşının, bacısının Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadıldıqda [2, s. 27].

Diqqətə təqdim edilən Miqrasiya Məcəlləsinin 40-cı maddəsinin mətnində göstərilən hər bir hərəkətə görə (müalicə olunduqda, yaxın qohumları ağır xəstələndikdə və ya vəfat etdikdə, nəzərdə tutulmuş işlər başa çatdırılmadıqda, təbii fəlakət baş verdikdə, avtonəqliyyat vasitəsi sıradan çıxdıqda və s.) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya proseslərinin iştirakçısına çevrilirlər və onların ölkəmizdə müvəqqəti olma müddəti artırılır. Belə ki, onlar mövcud qanunlara əməl etməli, ölkəmizin ərazisində sərbəst hərəkət etmələri üçün müvafiq dövlət orqanlarında zəruri icazələri almalı, şəxsiyyətlərini təsdiq edən paspotu və sərhədkeçmə sənədləri və özləri barəsində düzgün məlumatları təqdim etmlidirlər. Ölkəmizin ərazisində təmasda olduqları vətəndaşlar və müvafiq dövlət orqanlarının (Dövlət Miqrasiya Xidməti, Daxili İşlər Nazirliyi və s.) əməkdaşları ilə səmimi və mehriban davranmalıdırlar.

Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə müvəqqəti olma müddətinin uzadılması qaydasıilə bağlı müddəalar da öz əksini tapmışdır. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 40-cı maddəsində göstərilir ki, Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti onların və ya qanuni nümayəndələrinin müraciəti əsasında 60 günədək uzadıla bilər. 18 yaşına çatmamış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti valideyninin və ya digər qanuni nümayəndəsinin müraciəti əsasında uzadılır [2, s. 27].

Qanunvericiliyə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəmizdə müvəqqəti olma müddətinin bitməsinə azı 3 iş günü qalmış müvəqqəti olma müddətinin uzadılması üçün Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər. Müvəqqəti olma müddətinin uzadılması barədə ərizə-anket və tələb olunan digər sənədlər elektron müraciət formasında təqdim edilə bilər. Ölkəmizdə müvəqqəti olma müddətinin uzadılması üçün əcnəbilər və vətəndaşlığı olmayan şəxslər "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət rüsumu ödəyirlər. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin pasportlarının və ya digər sərhədkeçmə sənədlərinin etibarlılıq müddətlərinin bitməsinə 1 aydan az vaxt qaldıqda, onların ölkədə müvəqqəti olma müddəti uzadılmır.

Dövlət Miqrasiya Xidməti ölkəmizdə müvəqqəti olma müddətinin uzadılmadığı hallar aşkar etdikdə, müddətin uzadılmasından imtina edir və müraciət etmiş əcnəbilərə və vətəndaşlığı olmayan

şəxslərə imtina barədə yazılı məlumat verir. Müvəqqəti olma müddətinin uzadılması ilə bağlı müraciəti müsbət həll edilmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizdə müvəqqəti olma müddətinin uzadılması barədə qərar təqdim edir. Müvəqqəti olma müddətinin uzadılmasından imtina edilmiş şəxslər imtina barədə qərarı aldıqları vaxtdan 48 saat ərzində ölkə ərazisini tərk etməlidirlər.

Miqrasiya qanunvericiliyində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmadığı hallar da öz əksini tapmışdır. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 43.1-ci maddəsinə əsasən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti aşağıdakı hallarda uzadılmır, əvvəl verilmiş müvəqqəti olma müddətinin uzadılması haqqında qərar isə ləğv edilir: onların Azərbaycan Respublikasında müvəqqəti olması Azərbaycan Respublikasının milli təhlükəsizliyinə zərər vura biləcəyi hallarda; onların Azərbaycan Respublikasında müvəqqəti olması ictimai asayişə zərər vura biləcəyi hallarda; onlar Azərbaycan Respublikasında müvəqqəti olma müddətini uzatmaq məqsədi ilə saxta sənədlər və ya yalan məlumatlar təqdim etdikdə; onların şəxsiyyətini təsdiq edən sənədləri olmadıqda; onların Azərbaycan Respublikasının ərazisinə girişinə qadağa qoyulduqda;onların Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətini uzatmaq üçün əsas olmuş hal aradan qalxdıqda;onların Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə [2, s. 30].

Beynəlxalq hüquq normaların tələblərinə uyğun olaraq xarici dövlətlərinölkəmizdə fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşları, inzibati-texniki xidmət heyətinə daxil olan şəxslər və onların ailə üzvləri, həmçinin ölkəmizə xüsusi diplomatik missiya və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xüsusi missiya ilə səfər edən əcnəbilər üçün ölkədə müvəqqəti olma müddətlərinin uzadılması Miqrasiya Məcəlləsinə uyğun olaraq, Xarici İşlər Nazirliyi tərəfindən yeni viza verilməsi qaydasında həyata keçirilir.

Təcrübə göstərir ki, Xarici İşlər Nazirliyi tərəfindən ölkəmizdə fəaliyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, beynəlxalq təşkilatların nümayəndəliklərinin və bu sahədə işləyən digər şəxslərin müvəqqəti olma müddətlərinin uzadılması ilə bağlı məlumatların uçotunun aparılması çox vaxt Vahid Miqrasiya Məlumat Sisteminə daxil edilmir və ya bu barədə Dövlət Miqrasiya Xidmətinə məlumatlar verilmir. Bu da əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə uçotunun düzgün aparılmasına öz mənfi təsirini göstərir. Ölkəmizdə Vahid Miqrasiya Məlumat Sisteminin Dövlət Miqrasiya Xidməti tərəfindən aparılması və bu sahədə nəzarətin daha da gücləndirilməsi məqsədilə təklif edirik ki, Xarici İşlər Nazirliyi miqrasiya proseslərinin iştirakçıları hesab edilən və ölkəmizdə fəaliyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, beynəlxalq təşkilatların nümayəndəliklərinin və bu sahədə işləyən digər şəxslərin müvəqqəti olma müddətlərinin uzadılması barədə bütün yazılı məlumatları 24 saat ərzində Dövlət Miqrasiya Xidmətinə təqdim edilməsi qanunauyğun hesab edilsin.

Qeyd edilməlidir ki, Miqrasiya qanunvericiliyində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə müvəqqəti olma müddətinin uzadılması haqqında qərarın qəbul edilməsi ilə bağlı hüquq normaları da öz əksini tapmışdır. Belə ki, qanunda nəzərdə tutulmuş hallarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə müvəqqəti olma müddəti Dövlət Miqrasiya Xidməti tərəfindən uzadılır və bu barədə müvafiq qərar qəbul edilir. Bu subyektlərin ölkəmizdə müvəqqəti olma müddətinin uzadılması barədə qərar əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti olma hüququ verən rəsmi sənəd hesab edilir. Ölkəmizdə

müvəqqəti olma müddəti uzadılmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər pasportlarını və ya digər sərhədkeçmə sənədlərini və müvəqqəti olma müddətinin uzadılması haqqında qərarı təqdim edərək, dövlət sərhədinin buraxılış məntəqələrindən keçməklə, ölkəni tərk edə bilərlər.

Milli qanunvericiliyimizin tələblərinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında Azərbaycan Respublikasının 4 aprel 1996-cı il tarixli 55-IQ nömrəli Qanununa əsasın ölkəmizdə olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Bu Qanunun 11-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında 15 gündən artıq müvəqqəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 21-ci maddəsi ilə müəyyən edilmiş müddətdə və qaydada olduğu yer üzrə qeydiyyata alınmalıdırlar [6].

Ölkəmizdə 15 gündən artıq müvəqqəti olan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qaldığı yerin (mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası və s.) müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 15 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun (digər sərhədkeçmə sənədinin) surətini Dövlət Miqrasiya Xidmətinin internet informasiya ehtiyatı, elektron poçt vasitəsi ilə və ya şəxsən Dövlət Miqrasiya Xidmətinə təqdim etməlidir. Dövlət Miqrasiya Xidməti dərhal əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barədə məlumatları Vahid Miqrasiya Məlumat Sisteminə daxil etməklə onları olduğu yer üzrə qeydiyyata alır və bu barədə 1 iş günü ərzində müraciət edən şəxsə məlumat verir.

Milli qanunvericiliyimizdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız yaşamalarına görə inzibati məsuliyyət nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 575.1.1-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız yaşamasına görə - əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir [3, s. 246].

Göründüyü kimi İnzibati Xətalar Məcəlləsinin 575.1.1-ci maddəsində iki inzibati əmələ görə həm olma və ya yaşama hüququ verən sənədlər olmadan, həm də qeydiyyatsız yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə görə Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir. Düşünürəm ki, inzibati xəta törətmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs haqqında tətbiq edilən tənbeh ədalətli olmalıdır, belə ki, inzibati xətaların xarakterinə, onun törədilməsi hallarına və inzibati xətanı törətməkdə təqsirli bilinənin şəxsiyyətinə uyğun olmalıdır. Bununla bağlı təklif edirik ki, Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan yaşayan əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılma tətbiq edilsin. Azərbaycan Respublikasında qeydiyyatsız yaşayan əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə isə inzibati cərimə tətbiq edlisin.

Dövlət Miqrasiya Xidməti ölkəmizə viza əsasında gələn əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri - vizada göstərilən qalma müddətinə; viza tələb olunmayan qaydada gələn əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri isə - 90 gün müddətinə qeydiyyata alır. BMT-nin Qaçqınlar üzrə Ali komissarının Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş

əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin himayə müddətinə olduğu yer üzrə qeydiyyatı Dövlət Miqrasiya Xidməti tərəfindən Nümayəndəliyin məlumatları əsasında aparılır.

Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizin ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazələrin və bunu təsdiq edən sənədlərin verilməsi ilə bağlı hüquq normaları da təsbit edilmişdir. Belə ki, ölkəmizin ərazisində müvəqqəti yaşamaq istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bunun üçün müvafiq icazə almalıdırlar. Bu icazə Dövlət Miqrasiya Xidməti tərəfindən verilir. Bu şəxslərə müvəqqəti yaşamaq üçün icazə verildikdə, onlara Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi təqdim edilir. İcazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazə və etibarlılıq müddətində ölkəmizdən getmək və viza almadan ölkəmizə qayıtmaq hüququ verən, habelə həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəd hesab edilir.

Ölkəmizdə miqrasiya proseslərinin fəal iştirakçısı olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Miqrasiya qanunverciliyi ilə ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazə verildiyi hallar da ehtiva edilmişdir. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 45.1-ci maddəsində göstərilir ki, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə aşağıdakı hallarda Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilir:Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda; ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyduqda; Azərbaycan Respublikasının ərazisində azı 100.000 manat dəyərində daşınmaz əmlakı olduqda; Azərbaycan Respublikasında fəaliyyət göstərən banklara müddətli əmanət müqaviləsi əsasında azı 100.000 manat məbləğində pul vəsaiti qoyduqda; iqtisadiyyat, sənaye, hərbi, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda; Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ailə üzvləri olduqda; xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı filial və nümayəndəliyinin rəhbəri və onun müavini vəzifəsini tutduqda; Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda; Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrində əyani formada, habelə peşə təhsili və ümumi təhsil müəssisələrində təhsil aldıqda; dövlət qeydiyyatına alınmış dini qurumlarda peşəkar dini fəaliyyətlə məşğul olduqda; insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda; cinayət təqibi orqanlarına yardım göstərdikdə [2, s. 31].

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 45.1-ci maddəsindən göründüyü kimi, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazə verildiyi hallardan biri də dövlət qeydiyyatına alınmış dini qurumlarda peşəkar dini fəaliyyətlə məşğul olan şəxslər nəzərdə tutulur.Lakin bu müddəa "Dini etiqad azadlığı haqqında" Qanununda olan eyni məzmunlu müddəadan bir qədər fərqlidir. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının 20 avqust 1992-ci il tarixli 281 nömrəli Qanunu 1-ci maddəsinin 4-cü hissəsində göstərilir ki, bu Qanunun 21-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində dini təbliğat aparılması qadağandır. Bu Qanunun 21-ci maddəsinin dördüncü hissəsində isə göstərilir ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən dini mərkəz (idarə) tərəfindən dəvət edilmiş və ya Azərbaycan Respublikasında rəsmi səfərdə olan əcnəbi və ya vətəndaşlığı olmayan din xadimi tərəfindən dini ibadət, ayin və mərasimlərin aparılmasına yol verilir [5].

Diqqətə təqdim edilən"Dini etiqad azadlığı haqqında" Qanunun 1-ci maddənin 4-cü hissəsi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizin ərazisində dini təbliğatın aparılmasını qadağan edir və qanunun 21-ci maddəsinin 4-cü hissəsinə istinad edərək göstərir ki, ölkəmizdə fəaliyyət göstərən dini mərkəz (idarə) tərəfindən (Yəni - Qafqaz Müsəlmanlar İdarəsi) dəvət edilmiş və ya ölkəmizdə rəsmi səfərdə olan əcnəbi və ya vətəndaşlığı olmayan din xadimi tərəfindən dini ibadət, ayin və mərasimlərin aparılmasına yol verilir. Bu qanunda dövlət qeydiyyatına alınmış dini qurumlardan bəhs edilmir. Ölkəmizdə müvəqqəti rəsmi səfərdə olan fərdi din xadimlərindən söhbət gedir. Lakin Miqrasiya Məcəlləsinin 45.1-ci maddəsində ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazə verildiyi hallardan biri də dövlət qeydiyyatına alınmış dini qurumlarda peşəkar dini fəaliyyətlə məşğul olan əcnəbilərdən və ya vətəndaşlığı olmayan şəxslərdən bəhs edilir. Göründüyü kimi hüquq normaları arasında müəyyən ziddiyyət mövcuddur.

Bu iki qanunun müddəaları arasında mövcud olan ziddiyyətin aradan qaldırılması məqsədilə təklif edirik ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunun 21-ci maddəsinin 4-cü hissəsinin müddəaları, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 45-ci maddəsinin 45.1.10-cubəndinin tələblərinə uyğunlaşdırılması qanunamüvafiq hesab edilsin.

Miqrasiya qanunvericiliyinə görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, onlar ölkəmizin ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşama müddətinin bitməsinə azı 1 ay qalmış bu barədə icazə almaq üçün Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər.Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciətlərinə Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidmətinin rəyi nəzərə alınmaqla, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ödədiyi dövlət rüsumunun məbləğinə müvafiq olaraq həmin qanunda nəzərdə tutulmuş müddətdə baxılır. Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciət etmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında 10 iş günü ərzində rəy verir. Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti tərəfindən 10 iş günü ərzində müvafiq rəy bildirilmədikdə, bu, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsinə etiraz olunmadığı kimi qəbul edilir. Fikrimizcə, Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidmətini hansı hallarda rəy bildirilməməsinin səbəbləri barədə Miqrasiya Məcəlləsində müəyyən müddəaların əlavə edilməsi məqsədəuyğun hesab edilməlidir.

Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddəti 1 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 2 ildən çox olmayan müddətə uzadıla bilər. Ölkəmizin iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə 3 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 3 ildən çox olmayan müddətə uzadıla bilər. Ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün müraciət etmiş şəxsə icazə vəsiqəsi verilərkən onun həmin müraciət üzrə əlaqəli olan ailə üzvünə verilmiş icazə vəsiqəsinin etibarlılıq müddəti nəzərə alınır. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddəti uzadıldıqda, vəsiqə yenisi ilə əvəz edilir.

Miqrasiya qanunvericiliyinin tələblərinə görə miqrasiya proseslərinin iştirakçısı sayılan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə aşağıdakı hallarda ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazə verilmir və ya icazənin müddəti uzadılmır, əvvəl verilmiş icazə isə ləğv edilir. Bununla bağlı Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 50-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almaq məqsədi ilə saxta sənədlər və ya

yalan məlumatlar təqdim etdikdə; şəxsiyyətini təsdiq edən sənədləri olmadıqda və ya qanunda nəzərdə tutulan sənədlərdən biri və ya bir neçəsi təqdim edilmədikdə; pasportunun və ya digər sərhədkeçmə sənədinin etibarlılıq müddətinin bitməsinə 3 aydan az vaxt qaldıqda; Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəliklərin siyahısında nəzərdə tutulmuş xəstəlik virusu daşıyıcısı olduqda (Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olanlar istisna olmaqla); əvvəllər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmaqla, həmin şəxslərin ölkəyə girişinə məhdudiyyət qoyulduqda; 180 gün ərzində 90 gündən çox Azərbaycan Respublikasının ərazisindən kənarda olduqda; xarici dövlətdə daimi yaşamaq üçün Azərbaycan Respublikasının ərazisini tərk etdikdə; Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə;barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılma barədə qərar qəbul edildikdə;Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşadığı dövrdə Azərbaycan Respublikasına gəlişinin bəyan edilmiş məqsədini pozduqda; əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozduğuna görə barəsində tətbiq edilmiş inzibati cəriməni ödəmədikdə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazə verilmir [2, s. 37].

Qeyd etmək lazımdır ki, ölkəmizdə miqrasiya proseslərində fəal iştirak edən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Miqrasiya qanunverciliyi ilə ölkəmizin ərazisində daimi yaşamaq üçün icazə verildiyi hallar və bunu təsdiq edən sənədlə bağlı olan hüquq normaları da öz əksini tapmışdır.Belə ki, Miqrasiya Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş əsaslarla müvafiq icazə əsasında son 2 il ərzində fasiləsiz olaraq ölkəmizin ərazisində müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəmizin ərazisində daimi yaşamaq icazəsi almaq üçün vəsatət verə bilərlər. Bu şəxslərə ölkəmizin ərazisində daimi yaşamaq üçün icazə Dövlət Miqrasiya Xidməti tərəfindən verilir.Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizin ərazisində daimi yaşamaq üçün icazə verildikdə, həmin şəxslərə Dövlət Miqrasiya Xidməti tərəfindən ölkəmizin ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi təqdim edilir. Ölkəmizin ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə və etibarlılıq müddətində Azərbaycan Respublikasından getmək və viza almadan Azərbaycan Respublikasına qayıtmaq hüququ verən, habelə həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən hüquqi sənəd hesab edilir.

Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyinə görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, ölkəmizdə daimi yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, ölkəmizin ərazisində müvəqqəti yaşama icazəsinin müddətinin bitməsinə ən azı 90 gün qalmış bu barədə icazə alınması üçün Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər. Ölkəmizin ərazisində daimi yaşamaq üçün icazənin verilməsi barədə ərizə-anket və tələb olunan digər sənədlər elektron müraciət formasında təqdim edilə bilər. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə daimi yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciətlərinə baxılarkən, onların Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hüquq və vəzifələri, habelə dövlət dili ilə bağlı biliyi Dövlət Miqrasiya Xidməti, Ədliyyə Nazirliyi və Təhsil Nazirliyinin mütəxəssislərindən ibarət komissiya tərəfindən yoxlanılır. Bu hal 18 yaşına çatmamış uşaqlara, yaşı 65-dən yuxarı olan və ya I dərəcə əlilliyi müəyyən edilmiş əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə şamil edilmir.

Ölkəmizdə müvəqqəti yaşamaq üçün icazənin verilməsində olduğu kimi, daimi yaşamaq üçün icazənin verilməsində də Dövlət Miqrasiya Xidməti müraciət etmiş şəxslərin sənədlərini

baxılması və rəy bildirilməsi üçün Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidmətinə göndərir. Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti 30 gün müddətində daxil olmuş sənədlərlə bağlı yoxlama apardıqdan sonra sənədləri Dövlət Miqrasiya Xidmətinə qaytarır. Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidmətinin 30 gün ərzində rəy bildirməməsi daimi yaşamaq üçün icazənin verilməsinə etiraz olunmadığı kimi qəbul edilir. Habelə, Dövlət Miqrasiya Xidməti daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı Daxili İşlər Nazirliyinə və digər aidiyyəti qurumlara müvafiq sorğular göndərir və rəsmi arayışlar alır.

Xüsüsilə qeyd edilməlidir ki, ölkəmizdə müvəqqəti və ya daimi yaşamaq üçün icazənin verilməsində əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərlə yanaşı, Dövlət Miqrasiya Xidməti, sənədlərə baxılması və rəy bildirilməsi funksiyasını icra edən Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti də miqrasiya proseslərinin iştirakçısı hesab edilirlər.

Qanuna görə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizdə daimi yaşamaq üçün icazənin verilməsindən imtina edildikdə, imtina edildiyi gündən etibarən 30 gün müddətində imtinaya səbəb olan hal aradan qalxdıqda, Dövlət Miqrasiya Xidmətinə təkrar müraciət edilə bilər. Ölkəmizdə daimi yaşamaq üçün icazə 5 il müddətinə verilir. Bu müddətin bitməsinə azı 3 ay qalmış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin müraciətinə əsasən daimi yaşamaq üçün verilmiş icazə yenidən 5 il müddətinə uzadıla bilər. Uzadılmaların sayı məhdudlaşdırılmır.

Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması, daimi yaşamaq üçün icazə vəsiqəsinin fərdi olaraq doldurulması və verilməsi, habelə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə verilməsi ilə əlaqədar müraciət etmiş, Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış və ya belə icazənin verilməsindən imtina edilmiş, o cümlədən Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazəsi ləğv edilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması Vahid Miqrasiya Məlumat Sistemi vasitəsi ilə həyata keçirilir.

Miqrasiya qanunvericiliyində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazənin verilmədiyi (müddətinin uzadılmadığı) hallarla bağlı olan hüquq normaları da öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 55-ci maddəsində göstərilir ki, aşağıdakı hallarda Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə verilmir (müddəti uzadılmır), əvvəl verilmiş icazə isə ləğv edilir: Azərbaycan Respublikasının milli təhlükəsizliyinə və ya ictimai asayişə zərər vurula biləcəyi hallarda; siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəlik virusu daşıyıcısı olduqda (Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olanlar istisna olmaqla); Azərbaycan Respublikasında daimi yaşamaq icazəsi almaq üçün saxta sənədlər təqdim edildikdə və ya yalan məlumatlar verildikdə; qəsdən ağır və ya xüsusilə ağır cinayət törətdiyinə görə məhkum olunduqda, əgər məhkumluğu qanunla müəyyən edilmiş qaydada ödənilməmişdirsə və ya götürülməmişdirsə; özlərinin və onlarla gələn ailə üzvlərinin minimal tələbatını ödəyə bilən vəsaiti olmadıqda (yaxın qohumu olan Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış şəxs ölkədə qaldıqları vaxtda onların təminatını öz üzərinə götürdüyü hallar istisna olmaqla); əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin (onunla gələn ailə üzvlərinin) maddi təminatını üzərinə götürmüş şəxs tərəfindən belə təminatdan imtina etmə ilə bağlı müraciət olunduğu halda, 10 iş günü ərzində özünün və onunla gələn ailə üzvlərinin minimal tələbatının ödənilməsi barədə başqa sənəd təqdim edə bilmədikdə; xarici dövlətdə daimi yaşamaq üçün Azərbaycan Respublikasının ərazisini tərk etdikdə; daimi yaşamaq üçün icazənin

verildiyi gündən hesablanmaqla istənilən bir il ərzində Azərbaycan Respublikasının ərazisindən kənarda olduğu günlərin cəmi 180 gündən çox olduqda; Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamağa icazə alması üçün əsas olmuş hallar aradan qalxdıqda; Azərbaycan Respublikasının ərazisində daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hüquq və vəzifələrini, habelə dövlət dilini bilmədikdə; Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə;barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılma barədə qərar qəbul edildikdə; Azərbaycan Respublikasının ərazisində daimi yaşadığı dövrdə Azərbaycan Respublikasına gəlişinin bəyan edilmiş məqsədini pozduqda; əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozduğuna görə barəsində tətbiq edilmiş inzibati cəriməni ödəmədikdə [2, s. 42].

Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyi beynəlxalq hüquq normalarının tələblərinə uyğun olaraq əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının qorunması ilə bağlı ölkəmizdə daimi yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina edilməsi və ya daimi yaşamaq üçün icazənin ləğv edilməsi haqqında qərardan şikayət verilməsi ilə bağlı hüquq normaları da müəyyən edilmişdir. Belə ki, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər ölkəmizdə daimi yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina və ya daimi yaşamaq üçün icazənin ləğv edilməsi haqqında qərardan Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər.

Bu məqalə üzrə aparılmış araşdırmalarla müəyyən edilmişdir ki, Miqrasiya Məcəlləsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə müvəqqəti olması və müvəqqəti və ya daimi yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina edilməsi və ya müvəqqəti və ya daimi yaşamaq üçün icazənin ləğv edilməsi haqqında qərardan şikayət verilməsi barədə hüquq norması yoxdur. Bununla bağlı təklif edirik ki, bu məsələlərlə bağlı Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində müvafiq hüquq normalarının əlavə edilməsi qanunamüvafiq hesab edilsin.

Qeyd etmək lazımdır ki, milli qanunvericiliyimizdə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi, Azərbaycan Respublikasının ərazisində onların olduğu yer üzrə qeydiyyata alınması, müvəqqəti olma müddətinin uzadılması, onlara müvəqqəti və ya daimi yaşamaq üçün icazənin və iş icazəsinin verilməsi (müddətinin uzadılması) qaydalarının pozulması halları ilə bağlı inzibati tənbeh növü də nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 568-ci maddəsində göstərilir ki, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi, Azərbaycan Respublikasının ərazisində onların olduğu yer üzrə qeydiyyata alınması, müvəqqəti olma müddətinin uzadılması, onlara müvəqqəti və ya daimi yaşamaq üçün icazənin və iş icazəsinin verilməsi (müddətinin uzadılması) haqqında müraciətə baxılmasında süründürməçiliyə yol verilməsinə, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində nəzərdə tutulmayan əlavə sənədlər tələb edilməsinə və ya müraciətə baxmaqdan əsassız imtina edilməsinə görə - vəzifəli şəxslər üç yüz manat məbləğində cərimə edilir [3, s. 244].

Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyimizdə əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri ölkəmizin ərazisində miqrasiya proseslərinin iştirakçısı kimi tanıdan hüquqlardan biri də onlara verilən iş icazəsidir. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 51.1-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq və haqqı

ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müvəqqəti yaşamaq üçün icazə ilə yanaşı, iş icazəsi almalıdırlar [2, s. 38].

Miqrasiya qanunvericiliyinin tələblərinə görə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər iş icazəsini onları işə cəlb edən hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsi ilə alırlar.İş icazəsi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizin ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmalarına icazə verən rəsmi sənəd hesab edilir. İş icazəsi Dövlət Miqrasiya Xidməti orqanı tərəfindən verilir.İş icazəsinin verilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetitərəfindən təsdiq edilən əmək miqrasiyası kvotası çərçivəsində həyata keçirilir. Kvota yerli əmək ehtiyatlarından səmərəli istifadə edilməsi və əmək miqrasiyası proseslərinin tənzimlənməsi sahəsindəki işlərin effektivliyinin artırılması məqsədi ilə tətbiq edilir. Kvota daxili əmək bazarının vəziyyəti, işçi qüvvəsinə tələbat, iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğu, məşğulluq xidməti orqanlarının işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanı, habelə yüksək ixtisaslı əcnəbi mütəxəssislərin cəlb edilməsi zəruriliyi nəzərə alınmaqla müəyyən edilir. Əmək miqrasiyası kvotasının müəyyən edilməsi qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

Ölkəmizin milli qanunvericiliyində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında iş icazəsi olmadan əmək fəaliyyəti ilə məşqul olduqları halda inzibati tənbehin tətbiqi ilə bağlı hüquq normaları da öz əksini tapır. Belə ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 575.1.4-cü maddəsində göstərilir ki, iş icazəsi tələb olunduğu hallarda bu icazə olmadan Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmasına görə - əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir [3, s. 246].

Fikrimizcə, ölkəmizdə müvəqqəti olan, müvəqqəti və ya daimi yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər barəsində tətbiq edilən inzibati məsuliyyətin əsas məqsədi onların cəzalandırılması deyil, həmin şəxslərin ölkəmizin qanunlarına əməl etmələrinə və birgəyaşayış qaydalarına hörmət etmələrinə xidmət edir.

Beləliklə, bu məqalədə Azərbaycan Respublikasına viza əsasında və ya viza tələb olunmayan qaydada gələn, ölkəmizdə müvəqqəti olan, müvəqqəti olma müddəti uzadılan, müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilən, Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin miqrasiya proseslərinin iştirakçıları qismində hüquq və vəzifələri araşdırılaraq təhlil edilmiş və Miqrasiya qanunvericiliyində mövcud olan nöqsanlarla bağlı bir sıra elmi təkliflər verilmişdir.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Hüquq nəşriyyatı, 2020.
2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. Bakı, Qanun, 2021.
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, Hüquq nəşriyyatı, 2021.
4. “Beynəlxalq xüsusi hüquq haqqında” Azərbaycan Respublikasının 6 iyun 2000-ci il tarixli 889-IQ nömrəli Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/509

5. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının 20 avqust 1992-ci il tarixli 281 nömrəli Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/7649

6. Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının 4 aprel 1996-cı il tarixli 55-IQ nömrəli Qanunu. [Elektron resurs]. URL: https://www.e-qanun.az/framework/3988

**Sadigova A.N.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.70.115-128**
**UDC: 314.727.2**

**Rights and duties of foreigners and stateless persons participating in miqration processes in the Republic of Azerbaijan**

**Abstract:** The article deals with paid employment in the Republic of Azerbaijan, participating in migration processes in the Republic of Azerbaijan, arriving in the Republic of Azerbaijan on a visa or visa-free basis, temporary, extended stay, temporary or permanent residence permit. The rights and responsibilities of permitted foreigners and stateless persons are investigated and analyzed, and a number of scientific recommendations are made.

**Keywords:** participants in migration processes; come to the country and leave the country; which is temporary; temporarily living; permanent resident; permitted to live temporarily or permanently; work permit.

**References**

1. Constitution of the Republic of Azerbaijan Baku, Qanun Publ., 2020 (in Azerbaijani).

2. Migration Code of the Republic of Azerbaijan. Baku, Qanun Publ., 2021 (in Azerbaijani).

3. Code of Administrative Offenses of the Republic of Azerbaijan. Baku, Huquq Publ., 2021 (in Azerbaijani).

4. Law No. 889-IQ of 6 June 2000 of the Republic of Azerbaijan “On International Private Law”. Available at: https://e-qanun.az/framework/509 (in Azerbaijani).

5. Law No. 281 of dated August 20, 1992 of the Republic of Azerbaijan “On Freedom of Religion”. Available at: https://e-qanun.az/framework/7649 (in Azerbaijani).

6. Law No. 55-IQ of 4 April 1996 of the Republic of Azerbaijan “On registration by place of residence and place of staying”. Available at: https://www.e-qanun.az/framework/3988 (in Azerbaijani).

♦ **Sadigova Afag Nadir** – an employye of the public legal entity of the Institute of Law and Human Rights under the public legal entity Center for Legal Expertise and Legislative Initiatives (Azerbaijan). E-mail: afaqsadiqova6@gmail.com

**Садыгова А.Н.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.70.115-128**
**УДК: 314.727.2**

## Права обязанности иностранных граждан и лиц без гражданства, участвующих в миграционных процессах в Азербайджанской Республике

**Аннотация:** Рассматривается оплачиваемая занятость в Азербайджанской Республике, участие в миграционных процессах в Азербайджанской Республике, прибытие в Азербайджанскую Республику по визе или безвизовому режиму, временное, длительное пребывание, временный или постоянный вид на жительство. исследуются и анализируются обязанности разрешенных иностранцев и лиц без гражданства, дается ряд научных рекомендаций.

**Ключевые слова:** участники миграционных процессов, с выездом и въездом в страну, временное лицо, временно проживающий, постоянный житель, временное или постоянное проживание, разрешение на работу.

### Библиография

1. Конституция Азербайджанской Республики. – Баку: Хугуг, 2020 (на азерб. яз.).
2. Миграционный кодекс Азербайджанской Республики. – Баку: Ганун, 2021 (на азерб. яз.).
3. Кодекс об административных правонарушениях Азербайджанской Республики. – Баку: Хугуг, 2021 (на азерб. яз.).
4. Закон Азербайджанской Республики № 889-IQ от 6 июня 2000 года «О международном частном праве». [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/509 (на азерб. яз.).
5. Закон Азербайджанской Республики № 281 от 20 августа 1992 года «О свободе вероисповедания». [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/7649 (на азерб. яз.).
6. О регистрации по месту жительства и месту проживания» Закон Азербайджанской Республики № 55-IQ от 4 апреля 1996 года.. [Электроный ресурс]. URL: https://www.e-qanun.az/framework/3988 (на азерб. яз.).

♦ **Садыгова Афаг Надир кызы** – сотрудница публичного юридического лица «Институт права и прав человека» при публичном юридическом лице «Центр правовой экспертизы и законодательных инициатив» (Азербайджан). E-mail: afaqsadiqova6@gmail.com